# COP29 sədrliyi Praqa və Belqrad şəhərlərində görüşlər keçirib

**COP29-un baş müzakirəçisi Yalçın Rəfiyev, sentyabrın 12-13-də Praqada keçirilən ATƏT-in 31-ci İqtisadi-Ekoloji Forumunun iclasında iştirak edib.**

Bu barədə COP29-un rəsmi saytında məlumat verilib.

İclasda COP29 ilə bağlı Azərbaycanın vizyonu və prioritetləri müzakirə olunub. Həmçinin ATƏT-in iqlim dəyişmələri ilə mübarizəyə verdiyi töhfə də müzakirə edilib.

Qeyd edək ki, 12 sentyabrda COP29 Prezidenti Muxtar Babayev Belqrad şəhərində bir sıra işgüzar görüşlər keçirib. Görüşlərdə ikitərəfli əməkdaşlığın gücləndirilməsi və COP29-a hazırlıq məqsədilə davamlı qərarların qəbuluna dəstək məsələləri müzakirə olunub.

Xatırladaq ki, noyabrın 11-22-də Bakı şəhərində Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının 29-cu tərəflər konfransı keçiriləcək.

Azərbaycan.- 2024.- 14 sentyabr (№ 200).- S.5.